# Azərbaycan-Braziliya parlamentlərarası əlaqələrinin inkişafı məsələləri müzakirə edilib



Martın 4-də Milli Məclisdə Braziliya Milli Konqresi Federal Senatının Elm, texnologiya, innovasiya, kommunikasiya və informatika komitəsinin sədri, Braziliya-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Kristovam Buarke ilə görüş keçirilib.

Milli Məclisin Sədri Oqtay Əsədov ilə keçirilən görüşdə parlamentlərarası əlaqələrin inkişaf etdirilməsi və qarşılıqlı maraq doğuran bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Milli Məclisin Sədri Azərbaycanın hər zaman Latın Amerikası ölkələri, o cümlədən Braziliya ilə əlaqələrin inkişafında maraqlı olduğunu söyləyib. Qeyd edib ki, yüksək səviyyəli qarşılıqlı səfərlər münasibətlərin inkişafına xidmət edir. Oqtay Əsədov ölkələrimiz arasında iqtisadi əlaqələrin inkişaf etdirilməsi üçün mövcud potensialdan səmərəli istifadə edilməsinin zəruriliyini bildirib. O diqqətə çatdırıb ki, Azərbaycan bu gün regionun ən güclü iqtisadiyyata malik ölkəsidir. Ölkəmizin bir sıra iri regional layihələr həyata keçirdiyini deyən parlamentin sədri "Cənub" qaz dəhlizi barədə qonağa ətraflı məlumat verib. Oqtay Əsədov, həmçinin bu gün Azərbaycanda qeyri-neft sektorunun sürətlə inkişaf etdiyini, ölkəmizdə bu istiqamətdə iqtisadi islahatların aparıldığını vurğulayıb. Əlavə edib ki, iki ölkə arasında kənd təsərrüfatı, turizm və digər sahələrdə əlaqələrin qurulması da çox önəmlidir.

Milli Məclisin Sədri Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı məlumat verərək bildirib ki, artıq dünyanın bir sıra ölkələri, o cümlədən bəzi Latın Amerikası dövlətləri Xocalı soyqırımını tanıyan və pisləyən qətnamələr qəbul ediblər.

Bakıda ikinci dəfə səfərdə olmaqdan məmnunluğunu bildirən Kristovam Buarke paytaxtımızın çox gözəlləşdiyini deyib. Azərbaycanın son 20 ildə əldə etdiyi uğurlardan danışan qonaq bütün bu nailiyyətlərin və göstərilən səylərin Braziliyada yüksək qiymətləndirildiyini vurğulayıb.

* * *

Sonra Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvləri ilə görüş olub.

Görüşdə komitənin sədri Səməd Seyidov bildirib ki, bu gün dünyanın sürətlə inkişaf edən ölkələri sırasında olan Braziliya ilə əlaqələrin genişləndirilməsi Azərbaycan üçün önəmlidir. Braziliya regionun aparıcı ölkələrindəndir və iqtisadi islahatlarına, dünyaya qapılarının açılmasına görə nümunə ola bilər. Azərbaycan da eyni şəkildə öz iqtisadi inkişafı, tolerantlığı, multikulturalizmi ilə nümunə ola biləcək bir ölkədir.

Kristovan Buarke Azərbaycana səfərinin məqsədinin münasibətlərin möhkəmləndirilməsi istiqamətində müzakirələr aparmaq olduğunu qeyd edib. O, qarşılıqlı səfərlərin ölkələrimiz arasında əlaqələrin daha da genişlənməsinə imkanlar yaratdığını vurğulayıb, bu səfərin də önəmli nəticələrinin olacağına inandığını bildirib.

**AZƏRTAC**

***Ağəəli MƏMMƏDOV (foto), "Azərbaycan"***